


## BAŞ PROKURORLUQ DƏFƏLƏRLƏ QƏBUL EDİLƏRƏK DİNLƏNİLİB VƏ ONLARA HÜQUQLARI İZAH OLUNUB

Baş Prokurorluğun Mətbuat xidmətindən Hakimiyyet.info.az-a bildirilib ki, aprelin 6-sı Baş Prokurorluğunun inzibati binasının qarşısında narazılığını ifadə edən şəxslərin hər biri Baş Prokurorluq və aidiyyəti struktur qurumlarda ayrı-ayrılıqda dəfələrlə qəbul edilərək dinlənilib və onlara hüquqları izah olunub.

Belə ki, Lalə Babaşova, Xalidə Məmmədova və Çiçək Aslanovanın şikayət etdiyi hallar üzrə hazırda aidiyyəti məhkəmələrdə cinayət işlərinə baxıldığından onlara məhkəmənin yekun qərarlarından narazı qaldıqları halda aidiyyəti üzrə yuxarı məhkəməyə müraciət etmək hüquqları izah edilib.

Vətəndaş Şövkət Abışovanın müraciəti üzrə daxil işlər orqanlarında aparılmış araşdırma zamanı şikayətin mülki xarakterli olması müəyyən edildiyindən ona mülki qaydada məhkəməyə müraciət etmək hüququ izah olunub.

Bundan başqa, şikayət edən digər şəxslərə müraciətlərində göstərilən halların araşdırılaraq müvafiq qərarın qəbul ediləcəyi bildirilib.

## BEYNƏLXALQ AXTARIŞA VERİLMİŞ KIVCI ABDULKADİR AZƏRBAYCANA EKSTRADİSİYA EDİLİB

Baş Prokurorluğun Beynəlxalq hüquqi əməkdaşlıq idarəsinin vəsatəti əsasında Moldova Respublikasının Baş Prokurorluğu tərəfindən "Mülki, ailə və cinayət işləri üzrə hüquqi yardım və hüquqi münasibətlər haqqında" 22.01.1993-cü il tarixli Konvensiyaya əsasən Türkiyə Respublikasının vətəndaşı Kıvcı Abdulkadirin ekstradisiyası haqqında qərar qəbul edilib.

Belə ki, Dövlət Gömrük Komitəsinin Əməliyyat-İstintaq Baş İdarəsində istintaq olunan cinayət işi üzrə Kıvcı Abdulkadirin qabaqcadan əlbir olduğu bir qrup şəxslə qaçaqmalçılıq yolu ilə ölkəyə gətirilən külli miqdarda dərman vasitələrinin qanunsuz dövriyyəsini təşkil etməsinə əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 200-1.2.2, 200-1.2.3 və 206.3.2-ci maddələri ilə təqsirləndirilən şəxs qismində cəlb olunaraq barəsində beynəlxalq axtarış elan edilib.

Kıvcı Abdulkadir Moldova Respublikasının ərazisində saxlanılaraq aprelin 5-də Ədliyyə Nazirliyi Penitensiar Xidmətin xüsusi konvoyunun müşayiəti ilə ölkəmizə gətirilib.



## "DAŞINMAZ ƏMLAKIN DÖVLƏT REYESTRİ HAQQINDA" QANUNDA DƏYİŞİKLİK EDİLDİ

Qanun layihəsi parlamentin aprelin 7-də keçirilən plenar iclasının gündəliyinə daxil edilib. Qanunvericiliyin tələblərinə uyğun aparılmamış tikinti obyektləri üzərində hüquqların qeydiyyatı məqsədilə hazırlanıb.

Belə ki, "Bələdiyyə torpaqlarının idarə edilməsi haqqında" Qanuna və Şəhərsalma və Tikinti Məcəlləsinə təklif olunan dəyişikliklərə əsasən 2023-cü il martın 1-dək inşa edilmiş tikinti obyektlərinin istismarına icazə verilməsi üçün onların etibarlılıq və təhlükəsizlik tələblərinə uyğunluğu müayinə ediləcək, daha sonra aparılmış müayinələrin nəticəsinə əsasən istismara hazırlığı barədə müsbət rəy verilmiş tikinti obyektlərinin yerləşdiyi torpaq sahələrinin fiziki və hüquqi şəxslərin mülkiyyətinə satılması və ya icarəsinə verilməsi məsələsinə baxılacaq. Qeyd olunan sənədlərin (tikinti obyektinin istismarına icazə və torpaq sahəsi üzərində mülkiyyət və ya icarə hüququnu təsdiq edən sənəd) mövcudluğu isə daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı (reyestrdən çıxarışın verilməsi) üçün əsas yaradacaqdır.

İstismara hazırlığı barədə müsbət rəy verilmiş tikinti obyektlərinin yerləşdiyi torpaq sahələrinin fiziki və hüquqi şəxslərin mülkiyyətinə satılması və ya icarəsinə verilməsi halları və qaydası qanun qəbul olunduqdan sonra təsdiq ediləcək qaydalarla müəyyən ediləcək.

Qanun layihəsi bir çox insanların öz əmlakının qanuni mülkiyyətçisinə çevrilmək üçün hüquqi baza rolu oynayacaq.

# ERMƏNİLƏR DÜNYADA 182, AZƏRBAYCANDA İSƏ 32 TERROR AKTI TÖRƏDİBLƏR

***Erməni terrorunun tarixi böyükdür. Hələ Azərbaycanda terror aktları olmayan dövrdə ermənilər dünyada 182 terror aktı həyata keçirib. Azərbaycanda isə 32 terror aktı törədiblər. Bu terror aktlarının əksəriyyəti nəqliyyat vasitələrində olub. Bu fikirləri Trend BİA-nın "Sahil Kərimli ilə Aktual" müəllif videolayihəsinə müsahibəsində təhlükəsizlik orqalarının veteranı, polkovnik Azər Gərayzadə deyib.***




Onun sözlərinə görə, Azərbaycan xüsusi xidmət orqanları həmin cinayətkarların hamsını yaxalaya bilib, cinayətkarlar məsuliyyətə cəlb edilib.

"Metroda iki terror aktı baş verib. Biri 1994-cü il 19 mart, ikincisi isə 3 iyul tarixində baş verib. 3 iyul 1994-cü ildə "Gənclik"-"28 May" stansiyaları arasında səhər 8:32-də partlayış baş verdi. Təbii ki, hüquq mühafizə orqanları hadisəyə cəld reaksiya verdi və bu terror aktı olduğu üçün bu birbaşa xüsusi xidmət orqanın səlahiyyətində idi. Böyük həcmdə iş göründü, gecə-gündüz terrorçunun axtarışı il məşğul olundu. Təxminən bir ay sonra terrorçunun kimliyi barədə məlumat daxil oldu. Bir il sonra biz onun yerini də müəyyən etdik. Məlum oldu ki, o, bizim milli ordumuzun zabiti olub. Müharibə dövründə əsir düşüb, Ermənistan xüsusi xidmət orqanları onunla maraqlanıb. Nadir metodlarladan istifadə edərək bu terror aktını həyata keçirməyə məcbur ediblər. Onun anasını Bakıdan Ermənistana, oradan da Şuşaya apararaq girov olaraq saxlamışdılar. Lakin biz onu qonşu dövlətlərin ərazisində müəyyən etdikdə, bir neçə dəfə həmin dövlətin xüsusi xidmət orqalarına müraciət edik. Onlar ya bizə cavab vermirdilər, ya da deyirdilər yoxdu. Bu məsələyə Ulu Öndər Heydər Əliyev qarışdıqdan sonra biz o terroçunu həmin dövlətdən ala bildik. Ulu Öndər həmin dövlətin prezidenti ilə bu barədə danışdı və həmin terrorçunun Azərbaycana qaytarılmasına nail oldu. Daha sonra 1998-ci ilə terrorçu Ali Məhkəmənin hökmü ilə ömrülük həbs edildi",- deyə o bildirib.

A.Gərayzadə həmçinin vurğulayıb ki, Azərbaycan xalqınnı bəxti gətirib ki, Ulu Öndər Heydər Əliyev o dövrdə hakimiyyətə gətirilib.

"Məhz onun gəlişindən sonra Azərbaycan müəyyən stabiliyyə, inkişafa nail olmağa başlayıb. Çünki bir çox ölkələrin xüsusi xidmət orqanları istəməzdi ki Azərbaycan sərbəst azad inkişaf etsin. Məhz o dövrdə Heydər Əliyevin dahiliyi sayəsində Azərbaycan xilas oldu", - deyə o əlavə edib.

# ATANIN TƏSƏLLİSİ VƏTƏNPƏRVƏLİK RUHUNDA TƏRBİYƏ ETDİYİ GƏNCLƏRDİR

***Müharibələrin acı nəticələri təkcə can almaqla, yenicə açılmaqda olan gül ətirli balaları vədəsiz soldurmaqla bitmir. Müharibələr həm də ömürlük ağlar qoyduğu ata-anaların, bacı-qardaşların, gəlin-qızların köksündə sağalmaz yaralar əkir. Müharibələr minlərlə gələcək həkimlərin, müəllimlərin, mühəndislərin, alimlərin həyatına son qoyur.***

Çiyinlərində vətənin azadlığı, ərazi bütövlüyü naminə qurban verdikləri övlad itkisi yükü daşıyan minlərlə azərbaycanlı ailələrindən biri də Hacıqabul rayon Kolanı kəndində yaşayan Səmədovlar ailəsidir. Bu ailədə 6 övlad dünyaya gəlib, onların ilkiSəmədov Elgün Loğman oğlu

01 sentyabr 1989-cu il tarixdə-Bilik günündə ( o dövr üçün) dünyaya göz açıb, onu əhatə edən ictimai mühit-ailə və məktəb mühiti onun kamil, vətənpərvər bilikli bir hərbi həkim kimi yetişməsinə zəmin yaratmışdır.



Səmədov Elgün Loğman oğlu hələ uşaqlıq illərindən qarşısına məqsəd qoyduğu vətən keşikçilərinin sağlamlıqları keşiyində durmaq arzusunu gerçəkləşdirmək üçün dünyaya göz açdığı eyni adlı gündə (01 sentyabr 2009) hərbi həkim kimi xidmətə başlamışdır. Xidmət etdiyi müddətdə nümunəvi davranışı, peşəkar hərbi tibbi xidmətlərinə görə böyük hörmət və nüfuz qazanmışdır.

Təəssüf ki, erməni terroru Səmədov Elgün Loğman oğlunun hərbi xidmətini yarımçıq qoymuşdur, bu terror nəticəsində 28 yanvar 2010-cu il tarixdə hərbi həkim Səmədov Elgün Loğman oğlu vətən uğrunda şəhid olmuşdur.

Şanlı II Qarabağ müharəbəsində yenilməz sərkərdə, Ali Baş Komandan İlham Əliyevin və müzəffər ordumuzun qazandığı qələbə-torpaqlarımızın işğaldan azad olunması Səmədovlar ailəsinin də yarasına məlhəm oldu.

Bu gün vətən yolunda şəhid olmuş hərbi həkim Səmədov Elgün Loğman oğlunun anası Lətafət xanım da, atası Loğman müəllim də işğaldan azad olmuş torpaqlarımızla təskinlik tapır.

Loğman müəllimin (Səmədov Loğman Baba oğlu) bir təsəllisi də Hacıqabul rayon təhsil şöbəsinin əməkdaşı kimi vətənpərvəlik ruhunda tərbiyə etdiyi gənclərdir.

**Allah səbr versin!**

**Allah bütün şəhidlərimizə rəhmət eləsin!**

**VƏTƏN SAĞ OLSUN!**

***Hamlet Abbasov***
***Hacıqabul rayonu, R.Abdullayev adına Qubalıbaloğlan kənd tam məktəbin riyaziyyat müəllimi Hamlet Abbasov***

# AZƏRBAYCANDA "KƏRİMƏ" DÖVLƏTİ QURMAQ İSTƏYƏN DƏSTƏ ÜZVLƏRİNƏ QARŞI XÜSUSİ ƏMƏLİYYAT KEÇİRİLİB

Hakimiyyet.info.az xəbər verir ki, Daxili İşlər Nazirliyi (DİN), Dövlət Təhlükəsizliyi Xidməti (DTX) və Baş Prokurorluq əməkdaşları tərəfindən bir qrup şəxsin İran xüsusi xidmət orqanları tərəfindən maddi maraq müqabilində və dini təbliğat yolu ilə ələ alınaraq ölkə ərazisində sabitliyin pozulması istiqamətində törədəcəkləri cinayət əməllərinin qarşısının alınması məqsədilə birgə xüsusi kompleks əməliyyat tədbirləri həyata keçirilib.

DİN, DTX və Baş Prokurorluqdan daxil olan birgə məlumata görə, müəyyən edilib ki, İranda yaşayan həmin ölkənin xüsusi xidmət orqanları ilə əməkdaşlıq edən Rufulla Axundzadə və Bəxtiyar Bayramov Tərtər rayon sakini Arif Cümşüdovu şirnikləndirici vədlər müqabilində ələ alaraq ona ölkə ərazisində silahlı iğtişaşlar törətməklə hakimiyyətin ələ keçirilməsi və Azərbaycan Respublikasının konstitusiya quruluşunun zorla dəyişdirilməsi yolu ilə şəriət qanunları ilə idarə olunan "Kərimə" dövlətinin qurulması məqsədilə "müqavimətçi dəstə" yaratması barədə tapşırıqlar veriblər.



Arif Cümşüdov verilmiş tapşırıqlar əsasında ətrafında olan dini radikalizmi təbliğ edən tanışları - Tərzan Qaraşov, Sənan Məmmədov, Xəqani Məmmədov və İqbal Axundovu bu işə cəlb edib. O, yaşadığı evdə mütəmadi olaraq təşkil etdiyi gizli yığıncaqlarda Rufulla Axundzadə və Bəxtiyar Bayramovun göstərişlərini həmin şəxslərə çatdırıb. Dəstə üzvləri əlavə şəxslərin də cəlb edilməsi istiqamətində fəaliyyətlər göstərərək bu barədə Rufulla Axundzadəyə məlumat veriblər.

Bundan başqa Rufulla Axundzadə Bakı şəhər sakini Anar İsayevi də əməkdaşlığa cəlb edərək ona da ölkə ərazisində iğtişaşların törədilməsi yolu ilə "Kərimə" dövlətinin qurulması üçün "müqavimətçi dəstə" təşkil etməyi tapşırıb. Rufulla Axundzadə yüksək maddi gəlir, silah və digər bütün lazımı dəstəyin veriləcəyini vəd edərək təşkilatlanmaları və birgə fəaliyyət göstərmələri məqsədilə Anar İsayevi Arif Cümşüdovla tanış edib.

Saxlanılan şəxslər özlərini cəmiyyətdə "dindar" kimi qələmə verərək sosial şəbəkələr üzərindən, eləcə də insanların toplaşdığı mərasimlərdə İran və dini radikalizm lehinə təbliğat apararaq Azərbaycanda formalaşmış tolerantlıq ənənələrinə xələl gətirmək üçün xaricdən aldıqları tapşırıqları yerinə yetiriblər

Dəstə üzvləri eyni zamanda İrandan məqsədli şəkildə göndərilən narkotik vasitələrin satışını təşkil edərək əldə etdikləri külli miqdarda pul vəsaitini məhz Azərbaycanda dini radikalizmin təbliğinə və digər pozuculuq fəaliyyətlərinin maliyyələşməsinə sərf ediblər.

Bu istiqamətdə əməliyyat-axtarış və istintaq tədbirləri davam etdirilir.

# XEYLİ MİQDARDA QIZIL-ZİNƏT ƏŞYALARI AŞKARLANIB



Hakimiyyet.info.az xəbər verir ki, İstanbul-Bakı aviareysi ilə gələn Azərbaycan Respublikası vətəndaşı Heydər Əliyev Beynəlxalq Aeroportunun ərazisindəki gömrük zonasını "Yaşıl kanal" buraxılış sistemi vasitəsilə tərk edən zaman Hava Nəqliyyatında Baş Gömrük İdarəsinin əməkdaşı tərəfindən "Qırmızı kanal"a yönləndirilib. Gömrük baxışı zamanı vətəndaşın əl çantasından, çəkisi təxminən 1104 qram olan xeyli dəyərdə qızıl-zinət əşyaları aşkarlanaraq gömrük rüsumlarının ödənilməsinə dəvət olunub.

Faktla bağlı araşdırma aparılır.